*Səyyar qəbullar*

# Kiçik Pirəli kəndində görüş-qəbul keçirilmişdir

İyun ayının 11-də rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Kiçik Pirəli kəndində əhali ilə görüşmüşdür. Görüşdə ziyalılar və ictimaiyyətin nümayəndələri, kənd ağsaqqalları iştirak etmişlər. Tədbiri açan kənd inzibati ərazi nümayəndəsi Elxan Allahverdiyev bildirdi ki, bu kənddə 190 təsərrüfatda 778 nəfər əhali yaşayır. Onların əsas məşğuliyyəti kənd təsərrüfatı məhsulları istehsal etməkdir. Kənd sakinlərinin bəziləri rayonda fəaliyyət göstərən idarə və təşkilatlarda həmçinin zavod və fabriklərdə, tikinti sahələrində də işləyirlər.



Kənddə bu il 137 hektar payızlıq taxıl səpilmişdir. Sahələrdən bol məhsul gözlənilir.

Görüş-qəbulda iştirak edən idarə və müəssisə rəhbərləri bu kənddə əhaliyə göstərilən xidmət işləri barədə RİH başçısına məlumat verdilər.

Görüşdə kənddə problemlərin də olduğu qeyd olundu. Sakinlər tərəfindən bir ədəd yeni artezian quyusunun qazılmasına, işıq xətlərinin dirəklərinin dəyişdirilməsinə ehtiyac olduğu bildirildi.



Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək, yeni iş yerlərinin açılmasının, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd etdi, kəndlərimizdə sosial-iqtisadi inkişafın bundan sonra da davam edəcəyini nəzər-diqqətə çatdırdı.

Sonda Səbuhi Abdullayev yeni tikilməkdə olan 180 yerlik kənd tam orta məktəbində son tamamlama işləri ilə tanış olmuşdur.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

## Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) baş katibi Əbdüllətif bin Rəşid Əl-Zəyaninin başçılıq etdiyi nümayəndə heyəti Qəbələyə gəlmişdir

Körfəz əməkdaşlıq Şurasının (KƏŞ) Baş Katibi Əbdüllətif bin Rəşid Əl-Zəyaninin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Nümayəndə heyəti səfər çərçivəsində Qəbələyə gəlmişdir.



Qəbələ rayonunda hörmətlə qarşılanan nümayəndə heyəti rayonun turizm imkanları ilə yaxından maraqlanmış, istehsal müəssisələrində istehsal prosesini yaxından izləmişdir. İlk öncə nümayəndə heyətinin üzvləri inşası davam edən «Tufan» Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin tikintisinə baxış keçirmişlər. Burada qonaqlara bildirilmişdir ki, dağlıq ərazidə yerləşən və istirahət üçün bütün əlverişli şəraitə malik olan bu rekreasiya-turizm obyekti Qəbələ şəhərindən təxminən 4 kilometr aralıda yerləşir. Diqqətə çatdırılmışdır ki, burada kanat yolu və xizəkçilik kompleksi 8 stansiyadan ibarət olacaqdır. Birinci stansiya dəniz səviyyəsindən 950 metr, sonuncu stansiya isə 1920 metr yüksəklikdədir. Artıq altı stansiyada quraşdırma işləri başa çatmışdır. Bir-birindən 1414 metr məsafədə və dəniz səviyyəsindən 1250 metr və 1650 metr yüksəklikdə olan stansiyalarda quraşdırma işləri aparılmışdır.

**(Ardı 3-cü səhifədə).**

# Beynəlxalq avtoyürüş iştirakçıları Qəbələdə

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə «Bizim ümumi qələbəmiz» adlı layihə çərçivəsində Sankt-Peterburq—Bakı—Moskva marşrutu üzrə «Qələbə yolları ilə» adlı beynəlxalq avtoyürüşün iştirakçıları 7—9 iyun tarixlərdə Qəbələ rayonunda olmuşlar.

«Qələbə yolları ilə» adlı beynəlxalq avtoyürüşün keçirilməsində məqsəd gənc nəslin vətənpərvərlik tərbiyəsi, II Dünya Müharibəsi veteranlarının videoarxivinin yaradılması, Rusiya Federasiyasının və MDB dövlətlərinin vətənpərvərlik cəmiyyətləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə yanaşı, gənclərin sosial-ictimai fəaliyyətə cəlb edilməsi, II Dünya Müharibəsi tarixinə və vətənimizin tarixinə marağın artırılmasından ibarətdir.

Beynəlxalq avtoyürüş iştirakçılarını rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov qarşılamış, Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış «Ana abidəsi» kompleksi ziyarət olunmuş və abidə önünə tər güllər qoyulmuşdur.




Daha sonra iştirakçılarla Qəbələ rayon İcra Hakimiyyətinin akt zalında görüş keçirilmişdir. Görüşdə rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirak etmiş, qonaqları salamlayaraq Qəbələ rayonunun mədəniyyəti, tarixi, adət-ənənələri, turizm potensialı haqqında ətraflı məlumat vermişdir.

Görüşdə həmçinin Böyük Vətən müharibəsi veteranları, ağsaqqalar və fəal gənclər iştirak etmişdir. Veteranların 1941—1945-ci illər müharibəsini əhatə edən söhbətləri, xatirələri və gənc nəslə tövsiyələri maraqla dinlənilmişdir. Layihənin iştirakçıları yerli gənclərə Qəbələdə yaşayan Böyük Vətən müharibəsi veteranları ilə söhbətlər aparmağı, onların xatirələrini videomaterial şəkilində arxivləşdirməyi tövsiyə ediblər. Bu işi həyata keçirmək üçün Qəbələdən olan 5 gəncə videokamera hədiyyə edilib. Görüşün sonunda xatirə foto-şəkilləri çəkilmiş, veteranlardan müsahibələr götürülmüşdür.



Avtoyürüş iştirakçıları Qəbələ rayonu ilə tanışlıq zamanı «Beltmann» piano fabrikində, «Qəbələnd» əyləncə və istirahət mərkəzində, atıcılıq kompleksində, tarix diyarşünaslıq muzeyində, Nic qəsəbəsində alban məbədində olmuşlar. İyunun 9-da beynəlxalq avtoyürüşün iştirakçıları Qəbələ rayonundan Bakıya yola düşmüşlər.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**